ƏDƏBİ KÖRPÛ

Aylıq Ədəbi Dərgi

ادبی کؤرپو

آیلیق ادبی درگی

USTAD DR HÜSEYN MÜHƏMMƏDZADƏ SƏDİQ

10. sayı yay.Təmmuz 2019

۱۰.جی سای یای. مرداد۱۳۹۸

BU SAYIDA

Vuqar NEMƏT
Qılman İMAN
Şeref TAŞLIOVA
Səid SADEQIFƏR
Seyyid SÜLEYMAN
Səadət BUTA
R.Ə(SAZAQ)
Nüyvər ŞƏRİFOVA
İqbal NƏHMƏT
Nigar ARIF
Bəhmən DƏLIDAĞLI
Ətayə ODƏR
Alemzer SADİQQIZI
Səxavət İZZƏTİ
Aygün SADIQ
Xeyrullah ÇƏLİŞ
Əjdər Ol
Yusif NƏĞMƏKAR
Zilələbonu_XALIQOVA
Saqıb RƏŞTABADI
Əli Talebi QAYABAŞI
Səmir KƏHİƏOĞLU
Mehran ƏBBASIYAN
Məhəmməd ÇALQIN
Vida HEŞMƏTI
Elvin NURİ
Lalə İSMAYIL
Vasif SÜLEYMAN
Duman BƏXTIYARI

بو سایدا

ووقار نعمت
قیلمان ایمان
شرف تاشلی اووا
سعید صادقیفر
سیّد سلیمان
سعادت بوتا
ر.ع(ساز اق)
نوی وَر شریف اووا
ایقبال نعمت
نیگار عارف
بهمن دلی داغلی
عطایه اودر
عالم زر صادق قیزی
آیگون صادیق
خیرالله م "چلیش"
اژدر اول
یوسیف نغمکار
زلاله بانو خالق اووا
ثاقب رشت آبادی
علی طالبی قایاباشی
سمیر کهیه اوغلو
مهران عباسیان
محمد چالقین
ویدا حشمتی
ائلوین نوری
لاله ایسماعیل
واصیف سلیمان
دومان بختیاری

ƏDƏBİ KÖRPÛ
Aylıq Edebi Dergi

Yayın Yönetmeni
Səxavet İzzəti

Yazışma Adresi

edebi.korpu@gmail.com
10.Sayı
Yaz. Mayıs 2019
(e-dergi)

آیلیق درگی
آیلیق ادبی درگی

یؤنتمن
سخاوت عزتی

یازیشما عنوانی

edebi.korpu@gmail.com
۱۰.سای
یاز خرداد.۱۳۹۸
(نت درگی سی)

BAŞ SÖZ YERİNƏ

Haziran ayının 17 ci günü türk dünyasi şairləri dördüncü “buta” şeir almanaxının açiliş mərasımı oldu. Almanaxa iran, türkiyə, özbəkistan, azərbaycan, tacikistan, qirqizistan və qazaqıstan şairlərinin şeirləri verilibdir. “ziyalı ocağı”ictimai birliginin xətti ilə hazirlanan “buta”4-cü sayı türk dünyasının böyük şairi imadəddin nəsimiyə həsr olunur.

“BUTA”NIN YARADICI HEYƏTİ:

İlahə BAYANDUR –Azərbaycan
Abdulhadi BAY –Türkiyə
Ağasəf İMRAN –Azərbaycan
Ülkü TAŞLIOVA ÖZKAN –Türkiyə
Bəhadir ATƏŞ – Qazaxıstan
Səxavət İZZƏTİ –İran
İkramxan VALİXAN –Özbəkistan
İslam MAHMUDOV–Azərbaycan
Solmaz MƏMMƏDOVA–Azərbaycan
Zilələbanu XALİQOVA –Özbəkistan
Asror ALLAYAROV –Özbəkistan



YATIM

Qılman İMAN

Ay ana, gözünə qurban,
Dur ağla, yuyunum yatım.
Gözü mənə düşən dərdin,
Gözündən yayınım, yatım.

Aşiqə - eşqi yuvadı,
Sözü mübarək duadı.
Sümüyə düşən havadı -
Qutarmır oyunum, yatım.

Pərdələnib göy yeddiqat,
Uyumaz yerdə can rahat.
Bir az üstümə torpağ at -
Ruhumu soyunum, yatım.

یاتیم

قیلمان ایمان

آی آنا، گؤزونه قوربان،
دور آغلا، یویونوم یاتیم.
گؤزو منه دوشن دردین،
گؤزوندن یایینیم، یاتیم.

عاشیقه - عشقی یووادی،
سؤزو موبارک دوعادی.
سومویه دوشن هاوادی -
قوتارمیر اویونوم، یاتیم.

پردله‌نیب گؤی یئددی قات،
اویوماز یئرده جان راحات.
بیر آز اوستومه تورپاغ آت -
روحومو سویونوم، یاتیم.

BU KƏNƏDDƏ BIR IT OXUYUR..

Vuqar NEMƏT

Bu kənəddə bir ıt oxuyur,
Dəyəməyin qoyun oxusun.
Ondan boyun qaçırmayın,
Boynuna qoyun oxusun.

Kim nə bilir bu ıt kimdi,
Günü keçir bir ıt kimi!
Səsi oxşayır ıçımı,
Siz allah deyin oxusun.

Səsinə qurd düşüb nəsə!
Itə dönər oxumasa,
Amandı quymayın susa,
Bıraz da öyün oxusun.

Başını ova qatmayın,
Ona daş, kəsək atmayın,
Namazını yayaltmayın,
Səsini duyun oxusun ! ..

بو کنده بیر ایت اوخویور..

ووقار نعمت

بو کنده بیر ایت اوخویور،
ده‌یمه‌یین قویون اوخوسون.
اوندان بویون قاچیرمایین،
بوینونا قویون اوخوسون.

کیم نه بیلیر بو ایت کیمدی،
گونو کئچیر بیر ایت کیمی!
سسی اوخشایبر ایچیمی،
سیز آللاه دئیین اوخوسون.

سسینه قورد دوشوب نسه!
ایته دؤنر اوخوماسا،
آماندی قویمایین سوسا،
بیرآز دا اؤیون اوخوسون.

باشینی اووا قاتمایین،
اونا داش، کسه‌ک آتمایین،
نامازینی یایالتمایین،
سسینی دویون اوخوسون!..

EL ÇEK TABİB

Şeref TAŞLIOVA

El çek tabip el çek dertli sinemden,
Sen benim derdime çare bilmezsin.
Sen nasıl tabipsin yoktur ilacın,
Yaram içerdedir sarabilmezsin.

Düştü gel
Atlandı gel düştü gel
İyi günüm iyi dosta
Kötü günüm düştü gel.

Yıkılsın feleğin taç ile tahtı,
Öyle bir ok vurdu hicranım aktı,
O yar de vermişti ikrarı ahtı,
O ki ikrarında durabilmezsin.

Göze de
Balık oynar gözede
Sana da kurban canım
Seni gören göze de.

İrfani'yim başa gelmez sözlerim,
Kalem alır kağıt üste izlerim,
Ne dursun ağlasana gözlerim,
Bir daha o yari görebilmezsin.

Su da yandı
Sel bastı su dayandı
Üstüme su serptiler
Tutuştu su da yandı.

ال چک تابیپ ال چک درتلی سینمدن

شرف تاشلی اووا

ال چک طبیب ال چک دردلی سینمدن،
سن منیم دردیمه چاره بیلمزسن.
سن ناسیل طبیبسن یوخدور علاجین،
یارام ایچریده‌دیر سارابیلمزسن.

دوشتو گل
آتلاندی گل دوشدو گل
یاخشی گونوم ایبی دوستا
کؤتو گونوم دوشدو گل.

ییخیلسین فلگین تاج ایله تاختی،
اؤیله بیر اوخ ووردو هیجرانیم آختی،
او یار ده وئرمیشدی ایقراری عهدی،
او کی ایقراریندا دورابیلمزسن.

گؤزه ده
بالیق اوینار گؤزه‌ده
سانا دا قوربان جانیم
سنی گؤرن گؤزه ده.

عیرفانی یم باشا گلمز سؤزلریم،
قلم آلیر کاغیذ اوسته ایزلریم،
نه دورورسون آغلاسانا گؤزلریم،
بیر داها او یاری گؤرییلمزسین.

سو دا یاندی
سل باستی سو دایاندی
اوستومه سو سرپدیلر
توتوشتو سو دا یاندی.

UZAQLARDA IŞIQLANAN KƏNDLƏR

Səid SADEQİFƏR

Hava qaranlıqlaşanda hər zaman kı yolum ərdəbilin çöllüklərinə tüşür və şəhərin qalabalığından bir az ara açıram lap o uzaqlarda ışıqlanan kəndlərin çıraqları məni özəl bir duyğuya aparır. Sankı uzaqlardan bir neçə kənd məni görüb ardıcıl düzülərək çıraqlarını yandırıb söndürürlər. boynumu döndərib çevrəmə göz gəzdirəndə bəzi çıraqlar lap uzaqlarda görsənirlər bəziləri isə lap yaxınlıqlarda. göz qapaqlarımı bir-birinə yaxınlaşdırıram hələ çox çətinliklə közərlənən çıraqların ışığı gözlərimə sataşır. özü-özümə deyirəm:görəsən o dağın döşündə yerləşən kənd hansı kənd dir?o ışığı çox o ışığı az gələn kənd hənsı bir kənd ola bilər? yollarını tanıdığım kənd dir mi? Ya heç bir zaman ayaqlarım oraların torpağına toxanmayıb? Bəziləri mənə elə yaxın - yavuq gəlir ki deyirəm elə bir saat oynaqlaya - oynaqlaya addımlasam oranın ayağına yetişərəm. bu ərdəbilin şaxta kəsən gecələrində başımda bir toxunma papaq ceblərim əllərimi qızdırır. həm gecəni həmidə doğanı birgə addımlayıram.o soyuqda bir neçə saat durandan sonra gecə ki yarını sovuşur hər yan qısa bir sukut la bürünür təkcə uzaqlardan yada bəlkə o yaxın kəndlərdən itlərin könülə yatan hürüşmələri gəlir.nə bilim bəlkə bu itlər bir yeri qoruyurlar kı səsləri belə gəlir ya sülək itlər soyuğu dözməyib hürüşürlər.

Savalanın ətəyinə baxdıqca bir neçə kənd parıldayır sankı ulduzlar göydə durmaqdan yorulub birlikdə dağların döşünə enib və oralara səriliblər ulduzlar sürü-sürü bir-birlərindən ayrılıb bəziləri ətəklərdən bir az aşağa özlərini ufuq xəttinə yaxınlaşdırıblar, bəziləri sə zirvələrə yaxın ucalıqları soyuq görüb bir-bir lərindən aralı durublar. və hər axşam it qurdların ulamasıla gecələrini səhər edirlər. Gecə çağı ışıqlanan kəndlər nəqədər uzaqlarda olsalarda hopdurma gücləri çox olur deməli gecə gözəllik lərini sevən insanları özlərinə sarı çəkirlər. Adam deyir:o parıldayan ışıqlara gendən - genə baxmaq yerinə qarşımı bir sərt gecə kəssə də heç olmasa bu sərtliyi canıma alıb ora gedim, və yaxından oralara toxanım nə bilim bəlkə də ışıqlara yaxınlaşanda o uzaqlardan parıldayan kəndlər elə də gözəl olmadılar.

Ürəyimdə bu sözləri deyərək quru arxın yanından keçib qoca çinarın silpəyində əyləşdim. bir savalana baxıram birdə ışıqlanan kəndlərə tüpürcəyimi göydə donduran havadan bir dərin nəfəs alıram ürəyim sərinləyib qabığalarım titrəyir hava elə doğrudan soyuqdur evə qayıtmalıyam.

اوزاقلاردا ایشیقلانان کند لر

سعیدصادقیفر

هاوا قارانلیقلاشاندا هر زامان کی یوْلوم اردبیلین چؤللوک لرینه دوشور، و شهرین قالابالیغیندان بیر آز آرا آچیرام لاپ اوْ اوزاقلاردا ایشیقلانان کندلرین چیراقلاری منی اؤزل بیر دویغویا آپاریر سانکی اوزاقلاردان بیر نئچه کند منی گؤروب آردیجیل دوزولرک چیراقلارینی یاندیریب سؤندورورلر.باشیمی ییرغالاییب چئوره مه گؤز گزدیرنده بعضی چیراقلار لاپ اوزاقلاردا بعضی لری ایسه لاپ یاخیندا گؤرسه نیرلر. گؤز قاپاقلاریمی بیر بیرینه یاخینلاشدیریرام هله چوْخ چتینلیک له کؤزرله نن چیراقلارین ایشیغی گؤزلریمه ساتاشیر . اؤزو - اؤزومه دئییرم گؤره سن اوْ داغین دؤشونده یئرلشن پاریلتی هانسی کند دیر ؟ اوْ ایشیغی چوْخ اوْ ایشیغی آز گلن کند هانسی بیر کند اولا بیلر؟ یوْللارینی تانیدیغیم کند دیر می؟یا هئچ بیر زامان آیاقلاریم اوْرالارین توْرپاغینا توْخانمایيب می؟بعضی لری منه ائله یاخین یاووق گلیر کی دئییرم ائله بیر ساعات اوْیناقلایا - اوْیناقلایا آددیملاسام اوْرانین آیاغینا چاتارام .بو اردبیلین شاختا کسن گئجه لرینده باشیمدا بیر توْخونما پاپاق جیب لریم اللریمی قیزدیریر . گئجه نی دوْغا ایلا بیرگه آددیملاییرام اوْ سوْیوقدا بیر نئچه ساعات دوراندان سونرا ائله کی گئجه یارینی سوْوشور هر یان قیسا بیر سوکوت ایله بورونور تکجه اوزاقلاردان یادا بلکه اوْ یاخین کند لردن ایتلرین کؤنوله یاتان هوروشمه لری گلیر.نه بیلیم بلکه بو ایتلر بیر یئری قوْرویورلار یا دا سولک ایت لر سوْیوغو دؤزمه ییب هوروشورلر.ساوالانین اته ییه باخدیقجا بیر نئچه کند پاریلداییر سانکی اولدوزلار گؤیده دورماقدان یوْرولوب بیرلیکده داغلارین دؤشونه ائنیب و اوْرالارا سریلیب لر . اولدوزلار سورو - سورو بیر بیرلرینن آیریلیب بعضی لری اتکلردن بیر آز آشاغا اؤزلرینی اوفوق خطینه یاخینلاشدیریب بعضی لری ایسه زیروه لره یاخین اوجالیقلاری سوْیوق گؤروب بیر - بیرینن آرالی دوروبلار و هر آخشام ایت قوردلارین اولاماسیلا گئجه لرینی سحر ائدیرلر . گئجه چاغی ایشیقلانان کندلر نقدر اوزاقلاردا اوْلسالاردا هوْپدورما گوجلری چوْخ اوْلور دئمه لی گئجه گؤزللیک لرینی سئون اینسانلاری اؤزلرینه ساری چکیرلر .آدام باخدیقجا دئییر : اوْ پاریلدایان ایشیقلارا گئندن گئنه باخماق یئرینه قارشیمی سوْیوق بیر گئجه باغلاسادا هئچ اوْلماسا بو سرتلییی جانیما آلیب اوْرا گئدیم و یاخیندان اوْرالارا توْخانیم نه بیلیم بلکه ده ایشیقلارا یاخینلاشاندا اوْ اوزاقلاردان پاریلدایان کندلر ائله ده گؤزل اوْلمادیلار.اوره ییمده بو سؤزلری دئیه رک قورو آرخین یانیندان کئچیب قوْجا چیناربن سیلپه ییندە ایله شیرم بیر ساوالانا باخیرام بیرده ایشیقلانان کندلره توپورجه ییمی گؤیده دوْندوران هاوادان درین بیر نفس آلیرام اوره ییم سرینله ییب قابیرغالاریم تیتره یر .هاوا ائله دوْغرودان سوْیوق دور ائوه قاییتمالییام.

AY ANA

Səadət BUTA

Tapammıram evimimizin yolunu,
Yolum-izim dəyişibdi, ay ana.
Sən ovundur yorğun düşən könlümü,
Dərdi-qəmlə döyüşübdü, ay ana.

Bəzən illər yazmadığın an yazır,
Ölüm haqdı, əcəl gəlsə can- hazır.
Lilpar bağla qara bağrım qan sızır,
Həsrət əzib, qəm deşibdi, ay ana.

Buta deyər, mələr ahum qayıtsın,
Dağı-daşı dələr ahım qayıtsın.
Balam gəlsin, nur sabahım qayıtsın,
Ürəyimə qor düşübdü, ay ana.

BİLMƏDİK

Seyyid SÜLEYMAN

Çatdı ömrün payız fəsli,
Yazın qiymətin bilmədik.
Çoxun arxasınca qaçdıq,
Azın qiymətin bilmədik.

.

Bədəsillər durdu öndə,
Başbilənlər qaldı gendə.
Haqq deyəni saldıq bəndə,
Düzün qiymətin bilmədik.

.

Haram pula sərvət dedik,
Torpaq satıb qeyrət dedik.
Hər ölənə rəhmət dedik,
İzin qiymətin bilmədik.

.

Dost sözünə sait əkdik,
Hecaladıq, defis çəkdik.
Xəmirinə zəhər tökdük,
Duzun qiymətin bilmədik.

.

Seyyid deyir, yolu azdıq,
Ədəb(i)yyata quyu qazdıq.
Necə gəldi şeir yazdıq,
Sözün qiymətin bilmədik.

آی آنا

سعادت بوتا

تاپاممیرام ائویمیمیزین یولونو،
یولوم-ایزیم دییشیبدی، آی آنا.
سن اووندور یورغون دوشن کؤنلومو،
دردی-غمله دؤیوشوبدو، آی آنا.

بعضاً ایللر یازمادیغین آن یازیر،
اؤلوم حاقدی، اجل گلسه جان- حاضیر،
لیلپار باغلا قارا باغریم قان سیزیر،
حسرت ازیب، غم دئشیبدی، آی آنا.

بوتا دئیر، ملر آهوم قاییتسین،
داغی-داشی ده‌لر آهیم قاییتسین.
بالام گلسین، نور صاباحیم قاییتسین،
اورگیمه قور دوشوبدو، آی آنا.

بیلمه‌دیک

سیّد سلیمان

چاتدی عؤمرون پاییز فصلی،
یازین قییمتین بیلمه‌دیک.
چوخون آرخاسینجا قاچدیق،
آزین قییمتین بیلمه‌دیک.

بد اصیللر دوردو اؤنده،
باش بیلنلر قالدی گئنده،
حاق دئیه‌نی سالدیق بنده،
دوزون قییمتین بیلمه‌دیک.

حارام پولا ثروت دئدیک،
تورپاق ساتیب غئیرت دئدیک،
هر اؤلنه رحمت دئدیک،
ایزین قییمتین بیلمه‌دیک.

دوست سؤزونه سایت اکدیک،
هئجالادیق، دئفیس چکدیک،
خمیرینه زهر تؤکدوک،
دوزون قییمتین بیلمه‌دیک.

سیّد دئییر، یولو آزدیق،
ادب(ی)یاتا قویو قازدیق،
نئجه گلدی شعیر یازدیق،
سؤزون قییمتین بیلمه‌دیک.

QƏZƏL

R.Ə(SAZAQ)

Beş daş oynar zamanından Mənə bir daş qaldı,
Dedilər dərdini söylə hani sirdaş qaldi?.

Qara gözlərdə gülən Şənliyimə qisqanıban,
Naz dolu al yanaxımda Quru bir yaş qaldı.

Sevgi adlı küçədə Məndə götürdüm qədəmim,
Eləcə qopdu yağış Sevgidə çaşbaş qaldı.

Dəlilər tək sürünüb Çölləri uydum yoluna,
Yol döyən can üzülüb Bir havalı baş qaldı.

Bunu bildim ki pis Olsan da sevər qançəkərin,
Gözü üstündə olarkən Ata-qardaş qaldı.

Yam yaşıl arzolara sərdi (Sazaq)lar qanadın,
Axdı könlümdən irinqan ürəgim daş qaldı.

غزل

ر.ع(سازاق)

بئش‌داش اوینار زامانیندان منه بیرداش قالدی،
دئدیلر دردینی سؤیله هانی سیرداش! قالدی؟

قارا گؤزلرده گولن شنلیگیمه قیسقانیبان،
ناز دولو آل یاناغیمدا قورو بیر یاش قالدی.

سئوگی آدلی کوچه‌ده من ده گؤتوردوم قدمیم،
ائله جه قوپدو یاغیش سئوگی ده چاش باش قالدی.

دلی‌لر تک سورونوب چؤللری اویدوم یولونا،
یول دؤین جان اؤزولوب بیرهاوالی باش قالدی.

بونو بیلدیم کی پیس اولسان دا سئور قان چکرین،
گؤزو اوستونده اولارکن آتا ـ قارداش قالدی.

یام یاشیل آرزولارا سردی (سازاق)لار قانادین،
آخدی گؤنلومدن ایرین قان اورگیم داش قالدی.

EŞQIN ILƏ TUT MƏNI

Nüyvər ŞƏRİFOVA

Daş olum əllərində,
Qayalardan at məni.
Odun kimi doğrayıb,
Ocağında çat məni.

Dönüm duza, çörəyə,
Yeməyinə qat məni.
Ürəyin istəyirsə,
Eşqin ilə tut məni.

Nə olsam da razıyam,
Təki əlin toxunsun.
Nəğməli dodağında,
Mənim adım oxunsun.

Uzaqdanca eşidim,
Daima gəlsin səsin.
Yetərimdi əzizim,
Tükənməsin nəfəsin.

عشقین ایله توت منی

نوی وَر شریف اووا

دؤنوم دوزا،چؤریه،
یئمگینه قات منی.
اورگین ایسته‌ییرسه،
عشقین ایله توت منی.

نه اولسام دا راضییام،
تکی الین توخونسون.
نغمه‌لی دوداغیندا،
منیم آدیم اوخونسون.

اوزاقدانجا ائشیدیم،
دایما گلسین سسین.
یئتَریمدی عزیزیم،
توکنمه‌سین نفسین.

BU GECƏ LAYLAMI ÇALMA

İqbal NƏHMƏT

Bu gecə laylamı çalma ay ana,
Yataram gedənim gələr, qayıdar.
Mənim yuxularım gözdən asılıb,
Yavaşca yuxumu dərər, qayıdar.

Tutub əllərindən ayağım üstə,
Yeriyə bilmişəm, qaça bilmişəm.
Gör necə laylanı yuxuma qatıb,
Subhun qapısını açа bilmişəm.

Gözəl avazından, həzin səsindən,
Kövrələr, ürəyim dayana bilər.
Bu gecə laylamı çalma ay ana,
Yatan körpəliyim oyana bilər.

Tək sənin gözündə uşağam hələ.
Çoxunun dayısı, əmisiyəm mən.
Ağıllı görünən dəli dünyanın,
Hərdən ağıllısı,dəlisiyəm mən.

Ayın kölgəsində görünüm deyə,
Qoşulub ulduza axdım olmadı.
Bu gecə laylamı çalma ay ana,
Bəlkə heç yatmağa vaxtım olmadı.

بو گئجه لایلامی چالما آی آنا!

ایقبال نعمت

بو گئجه لایلامی چالما آی آنا،
یاتارام گئدنیم گلر، قاییدار.
منیم یوخولاریم گؤزدن آسیلیب،
یاواشجا یوخومو درر، قاییدار.

توتوب اللریندن آیاغیم اوسته،
یئرییه بیلمیشم، قاچا بیلمیشم.
گؤر نئجه لایلانی یوخوما قاتیب،
صوبحون قاپیسینی آچا بیلمیشم.

گؤزل آوازیندان، حزین سسیندن،
کؤوره‌لر، اورگیم دایانا بیلر.
بو گئجه لایلامی چالما آی آنا،
یاتان کؤرپه‌لیگیم اویانا بیلر.

تک سنین گؤزونده اوشاغام هله.
چوخونون داییسی، عمیسی یم من.
عاغیللی گؤرونن دلی دونیانین،
هردن عاغیللیسی،ده‌لیسی یم من.

آیین کؤلگه‌سینده گؤرونوم دئیه،
قوشولوب اولدوزا آخدیم اولمادی.
بو گئجه لایلامی چالما آی آنا،
بلکه هئچ یاتماغا واختیم اولمادی.

SƏN GEDƏNDƏ...

Nigar ARİF

Mən coğrafiya dərslərindən
həyatın qızarmış gözlərini görürdüm...
Vulkan kimi püskürən gerçəkləri,
Gerçəklərin lavasında yalanların süründüyü düzənləri,
Ən uca dağların yerə çökən dizlərini görürdüm...
Bütün ölkələrdə eyni külək əsirdi,
eyni yağış yağırdı...
Mən özüm də ölkə idim, mən özüm də...
Sənin kimi bir ölkəni ram etmək istəyəndə,
Ürəyimdə bir zəlzələ olurdu,
Ən kobud, ən keçilməz yerlərin lap dərin qatlarında
Şirin sular axırdı,saf bulaqlar axırdı...
Ən uzaq ərazidə ən gözəl varlıqların üzlərini görürdüm..
Sən gedəndə...
Sən gedəndə başa düşdüm ki,
insan ən böyük aysberqdi
Illərlə əriyib ölümə doğru axır ...

سن گئدنده...

نیگار عارف

من جوغرافییا درسلریندن
حیاتین قیزارمیش گؤزلرینی گؤروردوم...
وولکان کیمی پوسکورن گئرچکلری،
گئرچکلرین لاواسیندا یالانلارین سوروندویو دوزنلری،
ان اوجا داغلارین یئره چؤکن دیزلرینی گؤروردوم...
بوتون اؤلکه‌لرده عئینی کولک اسیردی،
عئینی یاغیش یاغیردی...
من اؤزوم ده اؤلکه ایدیم، من اؤزوم ده...
سنین کیمی بیر اؤلکه‌نی رام ائتمک ایسته‌ینده،
اورگیمده بیر زلزله اولوردو،
ان کوبود، ان کئچیلمز یئرلرین لاپ درین قاتلاریندا
شیرین سولار آخیردی،صاف بولاقلار آخیردی...
ان اوزاق اراضیده ان گؤزل وارلیقلارین اوزلرینی گؤروردوم..
سن گئدنده...
سن گئدنده باشا دوشدوم کی،
اینسان ان بؤیوک آیسبئرقدی
ایللرله اریگیب اؤلومه دوغرو آخیر...

“DILQƏMI” DIL DEDI

Bəhmən DƏLIDAĞLI

Yenə qarışıbdır çiçək çiçəyə.
Yənə təbiətin yaz havası var.
Hər kəsin öz eşqi öz məhəbbəti.
Hər kəsin öz zövqü öz havası var.

,,Dilqəmi,, dil dedi dilsiz ağladı.
,Kərəmi,, od aldı sinə dağladı.
,,Dubeyti ,, ,,sarıtel,, daşdı çağladı.
Xalqımın gör neçə saz havası var.

Təb Dəlidağlının bəsidir bəsi.
Ellərin səsidir könlümün səsi.
Şairin dilində ,,ana ,,kəlməsi..
Şairin qəlbində söz havası var.

،،دیلقمی،، دیل دئدی

بهمن دلی داغلی

یئنه قاریشیبدیر چیچک چیچه‌یه.
ینه طبیعتین یاز هاواسی وار.
هر کسین اؤز عشقی اؤز محبتی.
هر کسین اؤز ذؤوقو اؤز هاواسی وار.

،،دیلقمی،، دیل دئدی دیلسیز آغلادی.
،کرمی،، اود آلدی سینه داغلادی.
،،دوبئیتی،، ،،ساریتئل،، داشدی چاغلادی.
خالقیمین گؤر نئچه ساز هاواسی وار.

تب دلی داغلی نین بسیدیر بسی.
ائللرین سسیدیر کؤنلومون سسی.
شاعیرین دیلینده ،،آنا ،،کلمه‌سی..
شاعیرین قلبینده سؤز هاواسی وار.

ƏZƏLDƏN SONA KIMI...

Ətayə ODƏR

Göynəyər qəlbindəki nisgilin yara yeri,
Gözlərə oxtək batar, bəxtinin qara yeri,
Səni sevən kəslərdə ruhuna ara yeri,
Kimsə səni anlamaz, getsə sonuna kimi...

Yorularsan, həyatın dolanbac yollarında ,
Ömrünü daşıyarsan, taqətsiz qollarında,
İnanarsan, bitəcək əzabın sonlarında,
Ağrılardan nəzilər, ürəyin cuna kimi...

Bu bəxti sənə yazan Fələyi qınayarsan ,
Bəxtini yelə verən ələyi qınayarsan,
Yoluna həsrət çıxar, taleyi qınayarsan,
Bu ömürdür - yol gedir, əzəldən sona kimi...

ازلدن سونا کیمی...

عطایه اودر

گؤینَییر قلبینده‌کی نیسگیلین یارا یئری،
گؤزلره اوخ تک باتار،بختینین قارا یئری،
سنی سئون کسلرده روحونا آرا یئری،
کیمسه سنی آنلاماز، گئتسه سونونا کیمی...

یورولارسان، حیاتین دولانباج یوللاریندا،
عؤمرونو داشییارسان، طاقتسیز قوللاریندا،
ایناناارسان، بیته‌جک عذابین سونلاریندا،
آغریلاردان نزیلر، اورگین جونا کیمی...

بو بختی سنه یازان فلگی قینایارسان،
بختینی یئله وئرن الگی قینایارسان،
یولونا حسرت چیخار، طالعیی قینایارسان،
بو عؤموردور - یول گئدیر، ازلدن سونا کیمی...

MƏNİM GERCƏK NAĞILIM...

Alemzer SADİQQIZI

Əlimə qələm aldım saatlarca donub qaldım görəsən ne yazım? Kimi yazır xan, bəy nəslindən olub, Kiminin ulu babası şah oğlu şah Abbas olub, Bəs mən kiməm? Belə deyirlər, onda ki, Azəbaycan iki yerə bölündü. O zamandan qaç-haqaç, qov-haqov başladı. Elə ki, hər kəs payını aldı qucağına bərk-bərk sıxdı bağrının başına. İmzalar atıldı, çəpərlər çəkildi.

Sadəcə sərhədlərə deyil, neçə-neçə ürəklərə tikanlı məftillər əkildi. Kiminin qoynunda analar haray çəkib ağladı.Kiminin qoynunda balalar analı- atalı yetim qaldı. Bax onda beş- altı yaşında Ələkbər adlı bir qara baxt oğlan çaşıb o biri Vətənində bu biri Vətənə keçdi. Elə o zamandan Hüseyn adlı atasına Sona adlı anasına Leyla, Sahab adlı bacılarına, Həsən adda qardaşına həsrət qaldı. Nə geri dönməyə qoydular nə illərlə doğmalarını aramağa qıydılar. Bu tərəfdə bir qarabaxt oğlan böyüdü. Bir qarnı ac, bir qarnı tox. Özgələr sahib çıxdı ona, böyüdü, evləndi,üç oğlu dünyaya gəldi. Amma dərd , həsret əlindən yaşı otuzu kecmədi.

Bir gün dözməyib doğmalarının həsrətinə əli ürəyinin üstünde gözləri Təbriz'ə tərəf kecinib İsə bir bax o tərəfdə gözləri yollara dikilən doğmaların bu tərəfdəki itkilərinin ölümünü belə bilməyib...Ondan üç oğul qaldı bu Vətəndə. Ən kiçiyi mənim atam qonşuda bir qız yaşarmış. Uşaqlığından anasını itirən minbir acıyla böyüyən qız. Bir gün dözməyib ögey anasının sitəmlərinə gəlib durub evlərinin qarşısından axan coşub- daşan Arpacayın sahilində yumub gözlərini özünü dəli sulara atmaq istəyib. Qonşuluq da yaşayan o kasıb oğlan yəni mənim atam görüb o qızı tutub əllərindən evlərinə gətirib. Bir özgəsinin paltarı, bir başqasının yaylığı ilə gəlin köçüb anam. Mən də həmən evdə doğulmuşam. Evimizi də öz əliylə qurub qapısını pəncərəsini də özü yonub.Beş körpə doğulub o evdə uşaq böyüdə-böyüdə min bir zillətlə yuva qurublar özlərinə. Amma hamımız uşaq ikən ən kiçiyimiz bir yaşında həm də Novruz bayramında evdən gülə- gülə işe gedən atamı vay- şivənlə çiyinlərdə gətirdilər. Yadımdadır o gün qonşumuz Çiçək xala yığıb bizi başına evlərinə apardı.Qarşımıza süfrə açıb çörək qoydu amma baxıb- baxıb süfrəyə əllərimizi uzada bilmedik. Qəhər boğazımızı eiə kəsdi əllərimiz çörəyi kəsmədi...Sonra hər axşam qısılıb bir birimize axşamdan yatdiq. Daha hər axşam bizi kürəyində gəzdirən ,öpüb əzizləyən atamız yoxdu.

Ömrünün otuz ikinci baharından beş uşaqla yalnız qalan anam. Nə doğulduğu ili bilir nə doğulduğu günü yaşı bilinməyən dərdi üzündən oxunan anam. Deyəsən doğulduğu il əzab ilidir doğulduğu gün talesizlik oğul toyu edəndə də ağlayıb, qız köçürəndə də hər gün bir il qocalan anam menim yazıq anam. Yaşı neçəyə çatıb bilmirik,uşaqlıqdan dərdlə - kədərlə qoşa böyüyən biz hələdə dərddən , acıdan ayrıla bilmirik. Biz beşimiz bir yerə yığılıb bizi əzabla böyüdəni xoşbəxt edə bilmirik. Yadımdadır bir müəllimiz vardı. Elə hey bir " xarici ölke" haqqında danışardı. Sonra da baxıb- baxıb üzümə "sənin gözlərin Anadolu qızlarının gözlərinə bənzəyir"- deyərdi və nədənsə dərsimi bildim bilmədim jurnala beşləri düzərdi.

Aylar aylari , illər- illəri qovdu və bir gün tarix təkrar olundu ...Yenə qaç-haqaç yenə qov-haqov. Yenə Vətəndə vətənsizlik, yenə həsrət yenə hüsran, çox şey itirdik. Qazandığımız da oldu." Xarici ölkə" deyilən yer dönüb doğmamız oldu. Tikanlı məftillər söküldü əvəzində gömrüklər dikildi çoxları qovuşdu çoxdan bəri həsrət qaldıqlarına. Bizimsə nə əslimizdən xəbər çıxdı, nə nəslimizdən. Çünki çox kiçik olmuşdu babam yadında qalan sadece doğmalarının adı olmuşdu. Hə bir də deyirlər tərcümeyi- halımda evimi, ünvanımı yazmalıyam. Mənimsə filan adda filan ünvanda evim yox. Yaşadığım yer Azərbaycan, milliyetim- Türk. Yaşımda dərdlərimin sayından xeyli az vəzifəm- ana adım soyadım - həyatdan vaxtsız köçmüş atam. Təhsilim – kitabları daha çox sevdiyimçün kitabxanaçı olmuşam. Uşaqlıqdan kitablara doğmalaşan mən həyata yad olmuşam. Bütün kitabları oxuyub bitirdikden sonra dönüb həyata baxmişam. Sən demə kitablar basqa həyat bambaşqa imiş. Hobbim məni həyatdan qoparan kitabların acığına özüm yazan olmuşam. x budur mənim tərcümeyi- halım və yaxud gercək nağılım. Nə bəy qızı olmuşam nə də Şah oğlu şah Abbasın nəvəsi olmuşam. Mən sadece Şərur rayonunun Aralıq adlı kəndində doğulmuşam. Vallah- billah baş açıb dərddən -ələmdən filan tarixdə filankes kimi yaşamamışam mən əslində heç doğulmamışam da. Mən o zaman doğulacam ki ,filan ayın filan gününde məni əzizləyəcəklər Alıb çiyinlərinə filan yerdə, filan ünvanda dəfn edəceklər. Onda mənim eni - uzunu hər kəsə bəlli kiçik bir yuvam olacaq. Üstündə isə mənim daş həsrətim ucalacaq...və üstündə qəribə sözlər yazılacaq. Filan ilde doğuldu , filan ildə vəfat etdi. Aşağıda ise bir misra yazilacaq. Fələyin yazdığını mən poza bilsəydim həmən, Onu arzumla , məramımla yazardım təzədən və hər kəs bu qızın bu rəqəmlərin arasındakı məsafə qədər də yaşamadığını biləcək. Göydən üç alma düşəcək...üçüdə eyni rəngdə eyni bicimdə. Biri həsrət dadacaq ,biri əzab biri ayrılıq Üçünüzədə qurban olum.Ey gözləri yollarda qalan Təbriz'im. Ruhumun dolaşdığı Anadolu'm Birdə torpaqları kimi sinəsi bölük-bölük ürəyindən qara qan sızan doğmaAzərbaycanım!!!

Burada bitdi mənim gerçək nağılım. Əslində bu acı nağılı doğmalarımı tapmaq ümidi ilə yazdım...

منیم گئرجک ناغیلیم...

عالم زر صادق قیزی

الیمه قلم آلدیم... ساعاتلارجا دونوب قالدیم...گؤرهسن نه یازیم... ؟
کیمی یازیر خان، بی نسلیندن اولوب. کیمینین اولو باباسی شاه اوغلو شاه عاباس اولوب...بس من کیمم؟
بئله دئییرلر،اوندا کی، آزربایجان ایکی یئره بؤلوندو ...او زاماندان قاچ -هاقاچ، قووها - قوو باشلادی...ائله کی، هر کس پایینی آلدی قوجاغینا...
برک-برک سیخدی باغرینین باشینا... ایمضالار آتیلدی، چیرلر چکیلدی... ساده جه سرحدلره دئییل ،نئچه-نئچه اورکلره تیکانلی مفتیللر اکیلدی...
کیمینین قوینوندا آنالار هارای چکیب آغلادی ..
کیمینین قوینوندا بالالار آنالی- آتالی یئتیم قالدی...
باخ اوندا بئش- آلتی یاشیندا علی اکبرآدلی بیر قارا باخت اوغلان چاشیب او بیری وطنیندن بو بیری وطنه کئچدی... ائله او زاماندان حسین آدلی آتاسینا صونا آدلی آناسینا لئیلا، صاحاب آدلی باجیلارینا، حسن آددا قارداشینا حسرت قالدی...نه گئری دؤنمهیه قویدولار نه ایللرله دوغمالارینی آراماغا قییدیلار...بو طرفده بیر قاراباخت اوغلان بؤیودو...بیر قارنی آج، بیر قارنی توخ... اؤزگهلرصاحیب چیخدی اونا... بؤیودو...ائولندی...اوچ اوغلو دونیایا گلدی. آما درد،حسرت الیندن یاشی اوتوزو کئچمهدی... بیر گون دؤزمهیب دوغمالارینین حسرتینه الی اورگینین اوستونده گؤزلری تبریزه طرف کئجنیب... ایسه بیر باخ ...او طرفده گؤزلری یوللارا دیکیلن دوغمالارین بو طرفدهکی اینکیلرینین اؤلومونو بئله بیلمهیب...اوندان اوچ اوغول قالدی بو وطنده .. ان کیچیگی منیم آتام...
قونشودا بیر قیز یاشارمیش... اوشاقلیغیندان آناسینی ایتیرن مین بیر آجیبلا بؤیویین قیز...
بیر گون دؤزمهیب اؤگئی آناسینین سیتملرینه...گلیب دوروب ائولرینین قارشیسیندان آخان جوشوب- داشان آرپاجایین ساحیلینده...یوموب گؤزلرینی... اؤزونو دلی سولارا آتماق ایستهیب...قونشولوق دا یاشایان او کاسیب اوغلان ینی منیم آتام گؤروب او قیزی توتوب اللرینن ائولرینه گتیریب...بیر اؤزگهسینین پالتاری، بیر باشقاسینین یایلیغی ایله گلین کؤچوب آنام... من ده همن ائوده دوغولموشام...
ائویمیزی ده اؤز الی ایله قوروب.. قاپیسینی پنجرهسینی ده اؤزو یونوب...بئش کؤرپه دوغولوب او.ائوده...اوشاق بؤیوده-بؤیوده مین بیر ذیلتله یووا قوروبلار اؤزلرینه... آما هامیمیز اوشاق ایکن ان کیچیگیمیز بیر یاشیندا...هم ده نووروز بایرامیندا ائودن گوله - گوله ایشه گئدن آتامی وای- شیونله چییینلرده گتیردیلر... یادیمدادیر... او گون قونشوموز چیچک خالا ییغیب بیزی باشینا ائولرینه آپاردی...قارشمیزا سفره آچیب چؤرک قویدو...آما باخیب- باخیب سفرهیه اللریمیزی اوزادا بیلمه دیک...
قهر بوغازیمیزی ائیه کسدی...اللریمیز چؤرگی کسمهدی...سونرا هر آخشام قیسیلیب بیر بیریمیزه آخشامدان یاتدیق...داها هر آخشام بیزی کورگینده گزدیرن ،اؤیوب عزیزلهین آتامیز یوخدو...
عؤمرونون اوتوز ایکینجی باهاریندان بئش اوشاقلا یالنیز قالان آنام...نه دوغولدوغو ایلی بیلیر نه دوغولدوغو گونو...یاشی بیلینمهین دردی اوزوندن اوخونان آنام. دئیهسن دوغولدوغو ایل عذاب ایلیدیر دوغولدوغو گون طالعسیزلیک...اوغول تویوائدنده ده آغلاییب، قیز کؤچورنده ده ...هر گون بیر ایل قوجالان آنام...منیم یازیق آنام...
یاشی نئچهیه چاتیب بیلمیریک...اوشاقلیقدان دردله - کدرله قوشا بؤیوین ییز هلهده درددن ،آجیدان آیریلا بیلمیریک...ییز بئشیمیز بیر یئره ییغیلیب بیزی عذابلا بؤیودنی خوشبخت ائده بیلمیریک...
یادیمدادیر...بیر موعلیمیز واردی...ائله هئی بیر " خاریجی اؤلکه" حاقیندا دانیشاردی...سونرا دا باخیب- باخیب اوزومه " سنین گؤزلرین آنادولو قیزلارینین گؤزلرینه بنزهیر" - دئیردی...و ندنسه درسیمی بیلدیم بیلمهدیم ژورنالا بئشلری دوزردی...
آیلار آیلاری،ایللر- ایللری قوودو...و بیر گون تاریخ تکرار اولوندو ...یئنه قاچ-هاقاچ یئنه قوو-هاقوو ...یئنه وطنده وطنسیزلیک..یئنه حسرت یئنه...چوخ شئی ایتیردیک...
قازاندیغیمیز دا اولدو." خاریجی اؤلکه" دئییلن یئر دؤنوب دوغمامیز اولدو. تیکانلی مفتیللر سؤکولدو...عوضینده گؤمروکلر دیکیلدی ...چوخلاری قووشدو چوخدان بری حسرت قالدیقلارینا... بیزیمسه نه اصلیمیزدن خبر چیخدی،نه نسلیمیزدن...
چونکی چوخ کیچیک اولموشدو بابام...یادیندا قالان ساده جه دوغمالارینین آدی اولموشدو..
هه بیر ده دئییرلر ترجومئیی- حالیمدا ائویمی، عونوانیمی یازمالییام. ..منیمسه فیلان آددا فیلان عونواندا ائویم یوخ...
یاشادیغیم یئر آذربایجان، میلییتیم- تورک..
یاشیمدا دردلریمین سایینداں خئیلی آز...وظیفم- آنا آدیم...سویادیم - حیاتدان واختسیز کؤچموش آتام... تحصیلیم - کیتابلاری داها چوخ سئودیگیمچون کیتابخاناچی اولموشام...اوشاقلیقدان کیتابلارا دوغمالاشان من حیاتا یاد اولموشام. بوتون کیتابلاری اوخویوب بیتیردیکدن سونرا دؤنوب حیاتا باخمیشام... سن دئمه کیتابلار باسقا حیات بام باشقا ایمیش... منی حیاتدان قوپاران کیتابلارین آجیغینا اؤزوم یازان اولموشام...
باخ بودور منیم ترجومئیی- حالیم و یاخود گئرجک ناغیلیم ... نه بی قیزی اولموشام نه ده شاه اوغلو شاه عاباسین نوهسی اولموشام. من ساده جه شرور رایونونون آرالیق آدلی کندینده دوغولموشام...
واللاه- بیللاه باش آچیب درددن -المدن فیلان تاریخده فیلانکس کیمی یاشامامیشام...من اصلینده هئچ دوغولمامیشام دا... من او زامان دوغولاجام کی ،فیلان آیین فیلان گونونده منی عزیزلیهجکلر ...آلیب چییینلرینه فیلان یئرده، فیلان عونواندا دفن ائدجنکلر...
اوندا منیم ائنی - اوزونو هر کسه بللی کیچیک بیر یووام اولاجاق ..اوستونده ایسه منیم داش حسرتیم اوجالاجاق...و اوستونده غریبه سؤزلر یازیلاجاق...فیلان ایلده دوغولدو،فیلان ایلده وفات ائتدی.. آشاغیدا ایسه بیر میصراع یازیلاجاق...
فلگین یازدیغینی من پوزا بیلسیدیم همن، اونو آرزوملا،مرامیملا یازاردیم تزهدن.
و هر کس بو قیزین بو رقملرین آراسیندا کی مسافه قدر ده یاشامادیغینی بیلهجک...
گؤیدن اوچ آلما دوشهجک...اوچوده عئینی رنگده عئینی بیچیمده...
بیری حسرت داداجاق ،بیری عذاب...بیری آیریلیق ...
اوچونوزده قوربان اولوم...ائی گؤزلری یوللاردا قالان تبریزیم... روحومون دولاشدیغی آنادولوم...بیرده تورپاقلاری کیمی سینهسی بؤلوک- بؤلوک اورگیندن قارا قان سیزان دوغما آذربایجانیم !!!
بورادا بیتدی منیم گئرجک ناغیلیم...
اصلینده بو آجی ناغیلی دوغمالاریمی تاپماق اومیدی ایله یازدیم...

USTAD HÜSEYN MÜHƏMMƏDZADƏ SƏDIQ

Səxavət İZZƏTİ

yaşayışı

Hüseyn mühəmmədzadə sədiq ۱۳۲۴ günəş ili tir ayının 15-ində (25 haziran 1945 miladı) təbrizin surxab məhəlləsində dünyaya göz açmışdır. atası, Ağa Mir Əli surxabının nəvəsi dir. Ağa Mir Əli surxabı rəbiəşşəriə)şəriətin baharı) kitabını yaratmışdır. anası isə ərdəbil xanı Abbasqulu xanın qızıdır. Abbasqulu xan məşrutə inqilabinin adlım döyüşçülərindən olmuş və şeyx muhəmməd xıyabanı qıyamındada fəəal iştirak etmişdir.

rəsmi təhsillə yanaşı yeni yetməlikdən təbrizdə "məscid camə"də və "hüzey talibiyə"də Aqa mırza Qulamhüseyn herisi və Aqa mirzə Imranın yanında quran və cameəlmuqədimat kitabların oxudu sonra mərhumlar Vəqayəy meşkat təbrizi və əbdulsəməd əmir şəqaqı və mühəmməd həsən burhanı yanında ərəbcə əqdalfrıd, divanu lugati't turk və ibnsının şəfa kitabi kimi kitabları oxudu və tərcümə etdi. təbrizdə danışsəray müqəddimatı pesəran(oğlanlar pedaqoq) mərkəzində oxuyurkən, tərbiət kitabxanasında işləmgə və oxumağa başladı.

diplumunu ۱۳۴۲ (1963 m) günəş ilində təbrizin "danşsray muqddımatı"sından almışdır. ۱۳۴۸(1969) də "fars dili və ədəbiyati" üzrə təbriz bılımyurdundan lisansını almışdır. ۱۳۴۸(1969) də iranin şah rəjimi mühəmmədzadə sədiqin irandan çixişini yasaqlayır və elə bu səbəbə görə istanbul bılımyurdundan qəbul olub və çağırıldığına baxmayaraq təhsilinə davam edə bilmir. iran inqilabindan sonra ۱۳۶۰(1981) da "əski türk dilçiligi" üzrə yüksək lisansını istanbül bılımyurdundan və ۱۳۶۲(1983) də "türk, fars və ərəb dilləri tətbiqi dil və ədəbiyati" üzərində elə həmən bılım yurdundan dokturluq dərəcəsinə nael olmuşdur.

ilk ədəbi fəaliyəti

doktur h. m. sədiq 1344 (1945 m.) ilindən ədəbi- elmi çalışmağa başladı. ilk məqaləsı 1344(1965) ilində "feriştəy mitra və cəşni mehrəgan"(mitra mələgi və mehrəgan düyünü) ünvanıilə təbrizdə "eytim idarəsı aylıq dərgisin"də nəşr oldu. 1345 (1966)ci ildə səməd behrəngi ilə tanış oldu, onunla "adınə" nəşriyəsində əməkdaşlıq etdi. onun əsərlrinə ilk elmi tənqid yazanda hüseyn düzgündür. həmin illərdə səməd özünə "qaranquş" taxma adı seçərkən sədiqdə "düzgün" adını seçdi. səməd behrəngi şəhid olduqdan sonra, düzgün "hünər və ictıma" dərgisini təbrizdə nəşr etməgə başladı bu dərgi 8 say nəşr olduqdan sonra qapandı və doktur düzgün həbsə salındı. səməd behrəngi mənzüməsini onun ölümündən uç gün sonra yazdı.ölüm yolu', ' uçğun daxma' və ' danişan qolçaq' şeirlərinidə həman zəman yazdı. doktur düzgün 1346(1967)nci ildə təbrizdə "əsri nevin"(yeni çağ) gündəliginə bağlı ədəbiyat dər əsri nevin(yeni çağda ədəbiyat) həftəliginidə nəşr etdi.

doktur sədiq (düzgün) jurnalistik və dərgi çıxartma işində fəaliyət göstərən güney azərbaycanli bir fəal yazıçıdir. o inqılab ərəfəsində yoldaş həftəlik dərgisi,sonra inqılab yolunda aylıq dərgisi, sonra yeni yol adı ilə uç aylıq elmi ədəbi fəslinamə və sonra əncümən zəban türkü tərəfindən bültən ünvanlı aylıq təhqiqi dərgiyə baş yazarlıq və rəhbərlik etdi 1368(1989)ci ildə itlaat gündəligi tərəfindən həftəlik türkcə nəşri çıxarmağa dəvət oldu və 14 il (1382(2003)ci ilə qədər) türkcə "səhənd" həftəligini gündəlik bişimində buraxılışa verdi.

doktur h. m. sədiq iranin bir çox bilim yurdlarında azərbaycanli və iran türk tələbələrinin istəgi üzrə 1369(1990)ci ildən türəkcə dil və ədəbiyyat kılaslarında hazir olmuş və tədris etmişdir. ilk türkcə kılası tehran bilmyurdunun tib bilimləri bılıyurdunda təsıs və idarə etmişdir. bu bili yurdunda icra edilən türkcə qıramer dərsi bir başlanğıc olaraq yavaş-yavaş bütün bilim yurdlarına yayılmış və hammısında icra edilmişdir. bu ilk türkcə dil bilgisi kılasına o zaman tehranda yaşayan bir çox ədəbiyyat sevərlər iştirak edirdilər. sonra sənəti şərif biliyürdi bu dərsi tədris etmək üçün doktur sədiqdən dəvət etdi. o bilim yurdunda füzulinin ğəzllərinin şərhi tədris olunurdu. ondan sonra əmir kəbir bili yurdunda, şəhid behişti bılı yurdunda, tehran azad islamı bılı yurdları vahıdlərində və 1370(1991) on illigində isfahan, təbriz, urmıh, zəngan, sımnan, həmədan və ... bılı yurdlarında doktur sədiq gedib hərəsində bir və ya iki yarı il tədris edirdi. bu bılım yurduları üçün aşağıdakı kitabları nəşr etdirdi:

Bərgzideyi mütuni nəzm və nəsr türki(türk şeir və nəsr mətnilərindən seçmələr).

Bərgzideyi mütuni nəzmi tərəki (türk şeir mətnilərindən seçmələr).

Türəkcə dil bilgisi.

Füzuli qəzəllərinin şərhi.

bu kılasların dil bilgisi dərslərini doktur sədiqin tələbələridə yiğib nəşr etmişlər. o cümlədə isfahan bili yurdunda tələbəlik edən Mühəmməd sadiq Naebi öz ustadının dərslərini doktur sədiqin dil bilim dərsligi adı ilə nəşr etmişdir.

ustad doktur sədiq bu gün iranda çox cəhətli bir alim və türkluqdu bu yorulmaz insan üstə qeyd olan kimi bacarıqlı jurnalist, dilçi, şair, müntəqid, ədəbiyyat şünas, dahi bir müdərris... dir.

ustad nəşr etdigi kətabların saynı saymaq belə saatlar vaxt istəyir. ustadın işlədigi kətablar çeşidli mevzulara ayid kitablardır. dram, şeir, luğət, folklor,aşıq ədəbiyyatı,dil qıramer ktablari, qədim daş yazılarını izah edən kətablar və sairə.

ustadın nader işlərindən biri nəşr etdigi kılasık şairlərin dıvanlarına yazdığı başlanğıclardır. ustadın çox gəniş halda yazdığı bu başlanğıclar ədəbiyyat tariximizdə qalarqı və önəmli işlərdən biridir.

ustad doktur sədiq həmi də bacarıqlı bir tərcüməçidir. şeirdən başqa ustad divanu lugati't turk kitabı kimi kitabı ərəb dilindən çox oxunacaqlı biçimdə farsca çeviriblər. çevirəmələrindən o cəmlədən füzulinin fərsca qəzəlləri və ya çağdaş şerimizdən farscaya qiymətli kitablar nəşr ediblər o cümlədən uşaqlıqdan mənə yoldaş olan asar şüərayı azərbaycan kitabı.

ustadın əsərlərin belə sıralaya bilərik :

1 - yaratdığı əsərlər qırx cildidən çoxdur. Bu əsərlər içində ustadın şeir toplularıda daxıldır.

2 - rəddaktə və toplama əsərlər sayı əlli cilddən çoxdur bu əsərlərin muqəddimələri ustadın təlıf əsərlrinə gərək artılırsın.

3 - tərcümə və ya çevirəmə bu əsərlərində sayı əllidən çoxdur. bu əsərlərində muqəddimələri ustadın yaratdığı əsərlrə şamil olmalıdırlar.

4 - çeşidli dərgilər və qazetlərdə yadığı məqalələr və ustadla aparılan danişiqlar əgər toplanarsa çox cildili kitab olar.

اوستاد حسین محمدزاده صدیق

سخاوت عزتی

یاشاییشی

حسین محمدزاده صدیق 1324 گونش ایلی تیر آیینین 15-ینده (25 جولای 1945 میلادی) تبریزین سرخاب محلّه‌سینده دونیایا گؤز آچمیشدیر. آتاسی، آقا میرعلی سرخابینین نوه‌سی دیر. آقا میرعلی سرخابی ربیع الشّریعه کیتابینی یاراتمیشدیر. آناسی ایسه اردبیل خانی عباسقلی خانین قیزی دیر. عباسقلی خان مشروطه اینقیلابینین آدلیم دؤیوشچولریندن اولُموش و شیخ محمد خیابانی قیامیندا دا فعّال ایشتیراک ائتمیشدیر.

رسمی تحصیللە یاناشی یئنی یتتمه لیک دن تبریزده «مسجید جامع»ده و «حوزه‌ی طالبیه»ده آقا میرزا غلامحسین هریسی و آقا میرزا عمران یانیندا قرآن و جامع المقدمات کتابلارین اوخودو سونرا مرحوملار وقایعی مشکات تبریزی و عبدالصمد امیر شقاقی و محمد حسن برهانی یانیندا عربجه عقدالفرید، دیوان لغات الترک و شفاء ابن سینا کتابلارین اوخودو و ترجمه ائتدی. تبریزده دانشسرای مقدماتی پسران مرکزینده اوخویورکن، تربیت کتابخاناسیندا ایشلەمگه و اوخوماغا باشلادی .

دیپلومونو 1342 گونش ایلینده تبریزین «دانشسرای مقدماتی»سیندن آلمیشدیر. 1348 ده «فارس دیلی و ادبیّاتی» اوزره تبریز بیلیم‌یوردوندان لیسانسینی آلمیشدیر .1348 ده ایرانین شاه رژیمی محمدزاده صدیقی ممنوع الخروج ائدیر و ائله بو سببه گؤره ایستانبول بیلیم‌یوردوندان قبول اولُوب و چاغیریلدیغینا باخمایاراق تحصیلینه داوام ائده بیلمیر. ایران اینقیلابیندان سونرا 1360 دا «اسکی تورک دیلچیلیگی» اوزره یوکسک لیسانسینی ایستانبول بیلیم‌یوردوندان و 1362 ده «تورک، فارس و عرب دیللری تطبیقی دیل و ادبیّاتی» اوزرینده ائله همن بیلیم‌یورددان دوکتورلوق درجه‌سینه نائیل اولُموشدور.

ایلک ادبی فعالیتی

دوُکتور ح. م. صدیق (1945 م.) ایلیندن ادبی - علمی چالیشماغا باشلادی. ایلک مقاله‌سی 1344 ایلینده «فرشته‌ی میترا و جشن مهرگان» عنوانی ایله تبریزده «ماهنامه‌ی آموزش و پرورش»ده نشر اولدو 1345 .نجی ایلده صمد بهرنگی ایله تانیش اولدو، اونونلا «آدینه» نشریه‌سینده امکداشلیق ائتدی. اونون اثرلرینه ایلک علمی تنقید یازان‌دا حسین دوزگوندور. همین ایللرده صمد اؤزونه «قارانقوش» تاخما آدی سئچرکن صدیق ده «دوزگون» آدینی سئچدی. صمد بهرنگی شهید اولدوقدان سونرا، دوزگون هنر و اجتماع درگیسینی تبریزده نشر ائتمگه باشلادی بۇ درگی 8 نومره نشر اولدوقدان سونرا قاپاندی و دوُکتور دوزگون حبسه سالیندی. صمد بهرنگی منظومه‌سینی اونون اؤلوموندن اوچ گون سونرا یازدی.اؤلوم یولو'، 'اوچغون داخما 'و' دانیشان قولچاق 'شعرلرینی‌ده همان زمان یازدی. دوُکتور دوزگون 1346 ـنجی ایلده تبریزده «عصر نوین» روزنامه‌سینه باغلی ادبیات در عصر نوین هفته‌لیگی‌ده نشر ائتدی.

دوُکتور صدیق (دوزگون) ژورنالیستیک و درگی چیخارتما ایشینده فعالیت گؤسترن گونئی آذربایجانلی بیر فعال یازیچی دیر. او انقلاب عرفه‌سینده یولداش هفته‌لیک درگی‌سی،سونرا انقلاب یولوندا آیلیق درگی‌سی، سونرا یئنی یول آدی ایله اوچ آیلیق علمی ادبی فصلنامه و سونرا انجمن زبان ترکی طرفیندن بولتن عونوانلی آیلیق تحقیقی درگی‌یه باش یازارلیق و رهبرلیک ائتدی 1368 ـنجی ایلده اطلاعات گونده‌لیگی طرفیندن هفته‌لیک تورکجه نشریه چیخارماغا دعوت اولُدو و 14 ایل (1382 ـنجی ایله قده‌ر) تۆرکجه سهند هفته‌لیگی نی گونده‌لیک قطعینده بوراخیلیشا وئردی.

دوُکتور ح. م. صدیق ایرانین بیر چوخ بیلیم یوردلارینداً آذربایجانلی و ایران تورک طلبه‌لری‌نین ایسته‌گی اوزه‌ره 1369 ـنجی ایلدن تورکجه دیل و ادبیات کیلاسلارینداً حاضیر اولُموش و تدریس ائتمیشدیر. ایلک تۆرکجه کیلاسی تهران بیلم یوردونون طیب بیلیملری بیلی‌یوردوندا تاسیس و اداره ائتمیشدیر. بو بیلی یوردوندا ایجرا ائدیلن تورکجه قرامر درسی بیر باشلانغیج اولاراق یاواش - یاواش بوتون بیلیم یوردولارینا یاییلمیش و هاممیسیندا ایجرا ائدیلمیشدیر. بو ایلک تورکجه دیل بیلگیسی کیلاسینا او زامان تهراندا یاشایان بیر چوخ ادبیات سئورلر ایشتیراک ائدیردیلر. سونرا صنعتی شریف بیلی‌یوردی بو درسی تدریس ائتمک اوچون دوُکتور صدیق‌دن دعوت ائتدی. او بیلیم یوردوندا فضولی‌نین غزللری‌نین شرحی تدریس اولُونوردی. اوندان سونرا امیر کبیر بیلی یوردوندا، شهید بهشتی بیلی‌یوردوندا، تهران آزاد اسلامی بیلی‌یوردولاری واحدلرینده و 1370 اون ایللیگینده اصفهان، تبریز، اورمیه، زنگان، سیمنان، همدان و ... بیلی‌یوردولارینداً دوُکتور صدیق گئدیب هر هره‌سینده بیر و یا ایکی یاری ایل تدریس ائدیردی. بۇ بیلیم‌یوردولاری اوچون آشاغیداکی کیتابلاری نشر ائتدیردی :

برگزیده‌ی متون نظم و نثر ترکی

برگزیده‌ی متون نظم ترکی

تورکجه دیل بیلگیسی

فضولی غزللرینین شرحی

بو کیلاسلارین دیل بیلگیسی درسلرینی دوُکتور صدیقین طلبه‌لری ده یغیب نشر ائتمیشلر. او جمله‌ده اصفهان بیلی یوردوندا طلبه‌لیک ائدن محمدصادق نائبی اؤز اوستادینین درسلرینی دکتر صدیقین دیل بیلیم درسلیگی آدی ایله نشر ائتمیشدیر.

استاد دکتر صدیق بو گون ایراندا چوخ جهتلی بیر عالیم و تورکلوقدو بو یورولماز انسان اوسته قید اولان کیمی باجاریقلی ژورنالسیت، دیلچی، شاعر، منتقد، ادبیات شوناس، داهی بیر مُدرس... دیر.

استاد نشر ائتدیگی کتابلارین ساینی سایماق بئله ساعتلر واخت ایسته یبر. استادین ایشلدیگی کتابلار چئشیدلی موضوع لارا عاید کتابلاردیر. درام، شعر، لغت،شعر،فولکلور،عاشیق ادبیاتی،دیل گرامئر کتابلاری، قدیم داش یازیلارینی ایضاح ائدن کتابلار و سایره.

استادین نادر ایشلریندن بیری نشر ائتدیگی کلاسیک شاعرلرین دیوانلارینا یازدیغی باشلانغیجلاردیر. استادین چوخ گئنیش حالدا یازدیغی بو باشلانغیجلار ادبیات تاریخیمیزده قالارقی و اونملی ایشلردن بیریدیر.

استاد دکتر صدیق همی ده باجاریقلی بیر ترجمه چی دیر. شعردن باشقا استاد دیوان اللغات ترکی کتابی کیمی کتابی عرب دیلیندن چوخ اوخوناجاقلی بیچیمده فارسجایا چئویریبلر. چئویرمه لرینده او جمله دن فضولی نین فرسجا غزللری و یا چاغداش شعریمیزدن فارسجایا قیمتلی کتابلار نشر ائدیبلر اوجمله دن اوشاقلیقدان منه یولداش اولان آثار شعرای آذربایجان کتابی.

استادین اثرلرین بئله سیرالایا بیلریک :

1 - یاراتدیغی اثرلر قیرخ جیلددن چوخدور

2 - رداکته و توپلاما اثرلر سایی اللی جیلددن چوخدور بو اثرلرین مقدیمه لری استادین تالیف اثرلرینه گرک آرتیلیرسین.

3 - ترجیمه و یا چئویرمه بو اثرلرینده سایی اللی دن چوخدور. بو اثرلرینده مقدیمه لری استادین یاراتدیغی اثرلره شامیل اولمالی دیرلار.

4 - چئشیدلی درگیلرو قازئتلرده یادیغی مقاله لر و استادلا آپاریلان دانیشیقلار اگر توپلانارسا چوخ جیلدیلی کتاب اولار

BU YOL NƏ UZUN OLDU

Aygün SADIQ

Həyat kədərdən savay bir hiss yaşatmayanda,
Könül bircə gün belə sevinci dadmayanda,
Taleyin gərdişinə gücümüz çatmayanda
Barışmaq lazım oldu.

Gerçək ömürdə belə, arzular xəyal çıxdı,
Bəxtimizə əzəldən yüz cürə zaval çıxdı,
Qismət paylanılanda hər kəsə vüsal çıxdı,
Önümüzdə bir dənə ayrılıq kartı vardı-
O da ki, bizim oldu.

Hərəmiz bir tərəfə yön aldıq gəmi kimi,
Cavan ömür illəri biçildi zəmi kimi,
Ağır sitəm varmıdır həsrət sitəmi kimi?
Bizim sevgi nəğməmiz gör nə qədər kədərli,
Gör necə həzin oldu...

Çox dedilər, təkliyin at daşını, xoş yaşa,
Nə vaxtadək kənardan edəcəksən tamaşa?
Həyatın yollarına çıxginən məmnun, qoşa ...
Axır, evləndirdilər(Mənim bir dənə oğlum,
Səninsə qızın oldu.)....

Dünyanın sakinləri yamanca qəddar imiş,
Gör nə qədər maneə, neçə əngəl var imiş,
Bu dünyada qovuşmaq qismətdən kənar imiş,
Səni göstərən yolu ha gəlirəm, azalmır,
Bu yol nə uzun oldu!

بو یول نه اوزون اولدو

آیگون صادیق

حیات کدردن ساوای بیر حیس یاشاتمایاندا،
کؤنول بیرجه گون بئله سئوینجی دادمایاندا،
طالعیین گردیشینه گوجوموز چاتمایاندا
باریشماق لازیم اولدو.

گئرچک عؤموردە بئله، آرزولار خیال چیخدی،
بختیمیزه ازلدن یوز جوره زاوال چیخدی،
قیسمت پایلانیلاندا هر کسه ووصال چیخدی،
اؤنوموزده بیر دنه آیریلیق کارتی واردی-
او دا کی، بیزیم اولدو.

هره میز بیر طرفه یؤن آلدیق گمی کیمی،
جاوان عؤمور ایللری بیچیلدی زمی کیمی،
آغیر سیتم وارمیدیرحسرت سیتمی کیمی؟
بیزیم سئوگی نغمه‌میز گؤر نه قدر کدرلی،
گؤر نئجه حزین اولدو...

چوخ دئدیلر، تکلیگین آت داشینی، خوش یاشا،
نه واختادک کناردان ائده‌جکسن تاماشا؟
حیاتین یوللارینا چیخگینان ممنون، قوشا ...
آخیر، ائولندیردیلر(منیم بیر دنه اوغلوم،
سنینسه قیزین اولدو.)....

دونیانین ساکینلری یامانجا غدار ایمیش،
گؤر نه قدر مانع، نئچه انگل وار ایمیش،
بو دونیادا قووشماق قیسمتدن کنار ایمیش،
سنی گؤسترن یولو ها گلیرم، آزالمیر،
بو یول نه اوزون اولدو!

DİVANƏLƏR DİVANƏSİ

Xeyrullah ÇƏLİŞ
Məzar Şərif

ey sənin hicrində mən divanələr divanəsi,
içmədən şəhdi ləbin, peymanələr pimanəsi.

can qüşi etmiş nəzər sünbül sitanın bircə kəz,
bağlanibdir əl - əyaq zülanələr zülanəsi.

gün boyu sənsizligin dərdi ilən hərgecələr
oldu mənzil-məskənim meyxanələr meyxanəsi.

qalmadı əqlim başımda həm mədar cismim əra,
ındı dal mən oncə ki ol fərzanələr fərzanəsi.

bu nə hikkmət firqətin canım alar öldirmədən,
kaşkı ölsəm olmadan sərsanələr sərsanəsi.

ta haçan fəryad, fəğan o şikvələr qilsin “çəliş”
gəl gülüm tapsın nişat qəmxanələr qəmxanəsi.

دیوانه لار دیوانه سی

خیرالله م "چلیش"
مزارشریف.

ای سنینگ هجرینگده من دیوانه لار دیوانه سی
ایچمه دن شهدی لبینگ، پیمانه لار پیمانه سی

جان غوشی ایلاب نظر سنبل ستانینگ بیرجه کز
باغله نیپدیر إل - أیاق زولانه لار زولانه سی

گون بویی سنسیزلیگینگ دردی بلن هرگیجه لر
بولدی منزل - مسکنیم میخانه لار میخانه سی

غالمادی آنگیم باشیمدا هم مدار جسمیم ارا
ایندی دأل من اونگکی اول فرزانه لار فرزانه سی

بول نه حکمت فرقتینگ جانیم آلار اؤلدیرمه دن
کاشکی اؤلسه م بولمه دن سرسانه سرسانه سی

تا قچان فریاد، فغان و شکوه لر قیلسین چلیش
گئل گلوم تاپسین نشاط غمخانه لار غمخانه سی

آذربایجان تورکجه سیله

دیوانه لار دیوانه سی
خیرالله م "چلیش"
مزارشریف.

ای سنین هجرینده من دیوانه لر دیوانه سی
ایچمه دن شهدی لبین، پیمانه لر پیمانه سی

جان قوشی ائتمیش نظر سنبل ستانین بیرجه کز
باغلا نیبدیر ال - ایاق زولانه لر زولانه سی

گون بویو سنسیزلیگین دردی ایلن هرگئجه لر
اولدو منزل - مسکنیم میخانه لر میخانه سی

قالمادی عقلیم باشیمدا هم مدار جسمیم ارا
ایندی دال من اونجه کی اول فرزانه لر فرزانه سی

بو نه حکمت فرقتین جانیم آلار اؤلدیرمه دن
کاشکی اؤلسه م اولمادان سرسانه لر سرسانه سی

تا هاچان فریاد، فغان و شکوه لر قیلسین چلیش
گل گولم تاپسین نشاط غمخانه لر غمخانه سی

زولاق – ال و ایاق باغلاماق اوچون ایشلنن وسیله
سرسام – سرسم ، باشینی ایتیرمیش

DƏYİŞİK DÜŞMÜŞÜK

Əjdər Ol

Sizin aranızdan bəlkə də qaçdım,
Şərik yox dərdini bölən adama.
Bəlkə də dözməyib sirrimi açdım,
Özgə planetdən gələn adama.

Soyuq qarşılayıb belə küskünü,
O da şikayətə başlayacaqmı?!
Yerinin sirrini açan miskini,
Göydən gələn adam xoşlayacaqmı?!

Mənim güvəndiyim o boşqab – gəmi,
Yaxşını yamandan seçmədi bəlkə.
Duyub dediklərim Yerdəki kimi,
Göydə də bir işə keçmədi bəlkə.

Kaş göydən gələnim dərd bilən ola,
Bəlkə o da bizə dərdi-sər gəlir.
Bəlkə tanrı dözmür bu qalmaqala,
Meracdan təzə bir peyğəmbər gəlir?!

Bəlkə kimsə onu didərgin salıb,
Başqa planetə ümiddir o da.
Bəlkə mənim kimi havada qalıb,
Yer tapmır özünə quruda, suda.

Bəlkə də günahlar heç bizdə deyil,
Dəyişik düşmüşük, o, gəl-getdədir.
Bəlkə mənim yerim Yer üstə deyil,
Uzaqda, özgə bir planetdədir.

دییشیک دوشموشوک

اژدر اول

سیزین آرانیزدان بلکه ده قاچدیم،
شریک یوخ دردینی بؤلن آداما.
بلکه ده دؤزمه‌ییب سیرریمی آچدیم،
اؤزگه پلانئتدن گلن آداما.

سویوق قارشیلاییب بئله کوسکونو،
او دا شیکایته باشلایاجاقمی؟!
یئرینین سیررینی آچان میسکینی،
گؤیدن گلن آدام خوشلایاجاقمی؟!

منیم گووَندیگیم او بوشقاب - گمی،
یاخشینی یاماندان سئچمه‌دی بلکه.
دویوب دئدیکلریم یئرده‌کی کیمی،
گؤیده ده بیر ایشه کئچمه‌دی بلکه.

کاش گؤیدن گلنیم درد بیلن اولا،
بلکه او دا بیزه دردی - سر گلیر.
بلکه تانری دؤزمور بو قالماقالا،
معراجدان تزه بیر پئیغمبر گلیر؟!

بلکه کیمسه اونو دیدرگین سالیب،
باشقا پلانئته اومیددیر او دا.
بلکه منیم کیمی هاوادا قالیب،
یئر تاپمیر اؤزونه قورودا، سودا.

بلکه ده گوناهلار هئچ بیزده دئییل،
دییشیک دوشموشوک، او، گل-گئتده‌دیر.
بلکه منیم یئریم یئر اوسته دئییل،
اوزاقدا، اؤزگه بیر پلانئتده‌دیر.

İSTEDADSIZ

Yusif NƏĞMƏKAR

İstedadsız
adsız-dadsız
təamdı,
İstedadsız
odsuz
tiyandı.
İstedadsız adam-
Nadan kələyi,
Vaxtsız əsən səhra küləyi.
İstedadsız adam-
Məhsul verməyəcək əkili,
Adamın özü yox,
Quruca şəkili.
İstedadsız adam-
Sürtük, sırtıq,
Ağzı yırtıq və artıq...
İstedadsız-
Adsız.
Nə kür, nə mağıl...
Kinli,
Xain,
Paxıl.
İstedadsız adam-
Gopdan üzü ağ
Xəyanətə ən yaxın.
Həyatdan çox uzaq...
Harda aş -
orda baş.
İstedadsız adam-
Kəmfürsət, hövsələsiz,
Talançı olur
Yalanın özü kimi
yalançı olur.
İstedadsız adam -
İçilməsi müşkül mey,
Çalınmaz ney.
İstedadsız adam-
Adamdan başqa hər şey...

ایستعدادسیز

یوسیف نغمکار

ایستعدادسیز
آدسیز -دادسیز
تامدی،
ایستعدادسیز
اودسوز
تییاندی.
ایستعدادسیز آدام-
نادان کلگی،
واختسیز اسن صحرا کولگی.
ایستعدادسیز آدام-
محصول وئرمیه‌جک اکیلی،
آدامین اؤزو یوخ،
قوروجا شکیلی.
ایستعدادسیز آدام-
سورتوک، سیرتیق،
آغزی ییرتیق و آرتیق...
ایستعدادسیز -
آدسیز.
نه کور، نه ماغیل...
کینلی،
خاین،
پاخیل.
ایستعدادسیز آدام-
گوپدان اوزو آغ
خیانته ان یاخین.
حیاتدان چوخ اوزاق...
هاردا آش -
اوردا باش.
ایستعدادسیز آدام-
کم فورصت، حؤوصله‌سیز،
تالانچی اولور
یالانین اؤزو کیمی
یالانچی اولور.
ایستعدادسیز آدام -
ایچیلمه‌سی موشکول مئی،
چالینماز نئی.
ایستعدادسیز آدام-
آدامدان باشقا هر شئی...

Qəzəl

Saqıb RƏŞTABADI

Görəsən bağlayacaq hansı yetən çağ yaramı?
Yarı yadlarda didərgin, yarı çılpağ yaramı.

Hələdir çöldə bu kaftarlara paylanmadayam,
Gəl barı ağı de oxşa, ana dağ -dağ yaramı.

Doxsan ildir babalar sağlığına lallaşıram
öz evimdə hürüşür bir sürü yaltağ yaramı!

Qarabağda qaraqançil yaramı mürgülədim,
urmuda yatdı diyə duzladılar ağ yaramı.

Bir ömür yadlar üçün qardaşa çəkdik tətigi,
bu külək əsdirəcəkdir hələ zağ -zağ yaramı.

Yanıram indimi, keçmişlərimi göynəyirəm!
və canımdır eləyir körpəcə şıltağ yaramı.

Yeddi böl yeddiyə gömdür məni saqib bilirəm
birləşibsə sağadar yeddi bu toprağ yaramı

غزل

ثاقب رشت آبادی

گوره سن باغلییاجاق هانسی یئتن چاغ یارامی؟
یاری یادلاردا دیدرگین، یاری چیلپاق یارامی.

هله دیر چؤلده بو کافتارلارا پایلانمادایام،
گل باری آغی دئ اوخشا آنا داغ - داغ یارامی.

دوخسان ایل دیر بابالار ساغلیقینا لاللاشیرام!
اوز ائویمده هوروشور بیر سورو یالتاغ یارامی!.

قارا باغدا قارا قانچیل یارامی مورگوله دیم،
اورمودا یاتدی دئیه دوزلادیلار آغ یارامی.

بیر عؤمور یادلار اوچون قارداشا چکدیک ته تی گی،
بو کولک اسدیره جک دیر هله زاغ - زاغ یارامی.

یانیرام ایندیمی، کئچمیشلریمی گؤینه ییرم،
و جانیمدیر ائله ییر کورپه جه شیلتاغ یارامی

یئددی بؤل یئددییه گؤمدور منی ثاقیب، بیلیرم،
بیرلشیبسه ساغادار یئددی بو توپراق یارامی.

O'ZBEKISTONGA

Zülaləbonu_XALIQOVA

Tushlarimga kirgandi to'lqin,
Upishgancha yomg'irlar bilan.
Sohilida yurgancha yupin,
Dengiz bilan sirlashdim dildan.

Orzularim muralab boqar,
Kaspiyning oq kemalariga,
Tomirimda jo'shib qon oqar,
Boqqanimda dilbarlariga.

She'r o'qiyman ,quvnab to'liqib,
Taraladi sasim har yonga.
Qardosh xalqlar qarshisida jim,
Yuzlanaman O'ZBEKISTONGA.

Türkcəsi

Mirzahid MUZAFFER

Dalga gördüm rüyalarımda,
Öpüşerken yağmurlar ile.
Sahilinde yürüyüb yavaş,
Sırlarım söyledim denize.

Hayallerim gizlice bakar,
Hezer'in ağ gemilerine.
Damarımda kan akar coşkun,
Baktığımda güzelliğine.

Şiir okurum memnun olarak,
Yayılıyor sesim her yana.
Kardeş halklar gözünde suskun
Bakıyorum Özbekistan'a

آذربایجان تورکجه سیله:

زلاله بانو خالق اووا

دالغا گؤردوم رویالاریمدا،
اؤپوشورکن یاغمورلار ایله.
ساحیلینده یورویوب یاواش،
سیرلاریم سؤیله دیم دنیزه.

خایاللاریم گیزلیجه باخار،
خزر'ین آغ گمیلرینه.
داماریمدا قان آخار جوشقون،
باخدیغیمدا گوزللیگینه.

شعر اوخورام ممنون اولاراق،
یاییلیر سسیم هر یانا.
قارداش خالقلار گؤزونده سوسکون
باخییرام اوزبکیستان'ا

MƏN SƏNİ ŞEYRİMƏ

Əli Talebi QAYABAŞI

Mənsiz yağli tikə yemə sənədə sən
Ağrını acını demə sənədə sən
Yaninda utancaq yaşayiram mən
Necə davamlisan aza ،bilmirəm
Mən səni şeyrimə yaza bilmirəm.

Şeyrə qız yazarlar gəlin yazarlar
Gizləndim tapmağa gəlin ،yazar lar
Şeyrə gözəllərin xalıən yazarlar
Saxta kələmələri duzə bilmirəm
Mən səni şeyrimə yaza bilmirəm.

Gah dan ilan kimi çalan dır şeyir
Qalmalı dır şeyir qalan dır şeyir
Bəlkə də başa baş yalan dır şeyir
Day düzü əyri dən sezə bilmirəm
Mən səni şeirimə yaza bilmirəm.

Qarşıdan xoş gələn sabah kimi sən
Dünyama hükm edən bir şah kimi sən
Sən mənim güzümdə allah kimi sən
Daha bundan uca yüza bilmirəm
Mən səni şeirimə yaza bilmirəm.

Bəlkə də ağıl dan azmışam ana
Bəlkə də mən üzgə bazmişam ana
Səni urh yimə yazmişam ana
Silgi siz yazini poza bilmirəm
Mən səni şeirimə yaza bilmirəm.

من سنی شعریمه

علی طالبی قایاباشی

منسیز یاغلی تیکه یئمه سنده سن
آغرینی آجینی دئمه سنده سن
یانیندا اوتانجاق یاشاییرام من
نئجه داواملیسان آزا ،بیلمیرم
من سنی شعریمه یازا بیلمیرم.

شعره قیز یازارلار گلین یازارلار
گیزلندیم تاپماغا گلین ، یازار لار
شعره گوزل لرین خالین یازارلار
ساختا کلمه لری دوزه بیلمیرم
من سنی شعریمه یازا بیلمیرم.

گاه دان ایلان کیمی چالان دیر شئعیر
قالمالی دیر شئعیر قالان دیر شئعیر
بلکه ده باشا باش یالان دیر شئعیر
دای دوزو أیری دن سئزه بیلمیرم
من سنی شعریمه یازا بیلمیرم.

قارشیدان خوش گلن صاباح کیمی سن
دونیاما حوکم ائدن بیر شاه کیمی سن
سن منیم گوزومده آللاه کیمی سن
داها بوندان اوجا یوزا بیلمیرم
من سنی شعریمه یازا بیلمیرم.

بلکه ده آغیل دان آزمیشام آنا
بلکه ده من اوزگه بازمیشام آنا
سنی اوره ییمه یازمیشام آنا
سیلگی سیز یازینی پوزا بیلمیرم
من سنی شعریمه یازا بیلمیرم.

ƏLVİDA TƏBRİZ

Səmir KƏHİƏOĞLU
(KƏRKÜK)

Yarın əlvida deyəcəyəm sənə təbriz
Bağışla məni gedirəm,
Səndən gedəcək zorundayam
Yüzlərcə kilometr gecə qatarında
Xəyalında yatacağam,
Ömür boyu səni özələyəcəyəm
Bağışla məni
Səndə çox qalamadım,
Amıl qoxusunu aparacağam mənimlə
Hüzünlərini gözlərimdə saxlayacağam,
Yalançı təbsmlərini də bir kağaza saracağam
Bağışla məni təbrizim.
Doymadım səndən
Yağışlı gözlərindən
Bağışla məni
Mənim də bir hayatım var uzaqlarda çox
Uzaqlarda
Sənə deyim
Mənim də yolumu güzləyənlər var
Mənim də sevdiklərim var sənin kimi,
Əlvıda təbrizim
Bağışla məni.
Əgər bir gün ağlatmışsam səni
Ya.. tək yalqız qoymuşsam səni
Bilirmi sən??
Səni məndə görürlər
Məni də səndə
Hər zaman ikimizi deyirlər
Yox başqasını
Səni səndə əmant quyuram
Bu yağmurlu gecə də
Tirafik altında
Ağlamağın gəlirsə
Sadəcə məni.. məni.. məni ağla!!!

الویداع تبریز

سمیر کهیه اوغلو
(کرکوک)

یارین الویداع دئیه‌جه‌یم سنه تبریز
باغیشلا منی گئدیرم
سندن گئده‌جک زوروندایام
یوزلرجه کیلومئتر گئجه قاتاریندا
خیالیندا یاتاجاغام
عؤمور بویو سنی اؤزله‌یه‌جه‌یم
باغیشلا منی
سنده چوخ قالامادیم
آمل قوخوسونو آپاراجاغام منیم‌له
حوزونلرینی گؤزلریمده ساخلایاجاغام
یالانچی تبسم‌لرینی ده بیر کاغاذا ساراجاغام
باغیشلا منی تبریزیم
دویمادیم سندن
یاغیشلی گؤزلریندن
باغیشلا منی
منیم ده بیر حایاتیم وار اوزاقلاردا چوخ اوزاقلاردا
سنه دئییم
منیم ده یولومو گوزله‌ین‌لر وار
منیم ده سئودیکلریم وار سنین کیمی
الویداع تبریزیم
باغیشلا منی
اگر بیر گون آغلاتمیشسام سنی
یا.. تک یالقیز قویموشسام سنی
بیلیرمی‌سن؟؟
سنی منده گؤرورلر
منی ده سنده
هر زامان ایکیمیزی دئییرلر
یوخ باشقاسینی
سنی سنده امانت قویورام
بو یاغمورلو گئجه‌ده
ترافیک آلتیندا
آغلاماغین گلیرسه
ساده‌جه منی.. منی.. منی آغلا!!!

DƏRDDİR

Məhəmməd ÇALQIN

Hələ nə yatıbsan nə görəsənki?
Həyatın ay dədə çox işı dərddir.
Önündə dayanan bu oca dağın,
Enişi həsrətdir, yoxuşü dərddir.

Kövrəlmə, sarsılma, tablaş ay qağa,
Bizlər doğulmüşüq dərd oxumağa,
Bizim alnımızda başdan_ayağa,
Fəlgin çəkdigi naxışı dərddir.

Bəli fikırdaşım ayıq ol ayıq,
Yatan fikirləri ayıtmalıyq,
Çayları tərsinə qayıtmalıyq,
Bizlərə suların axışı dərddir.

دردیر

محمد چالقین

هله نه یاتیبسان نه گؤرەسن کی؟
حیاتین آی دەدە چوخ ایشی دردیر.
اؤنونده دایانان بو اوجا داغین،
ائنیشی حسرتدیر یوخوشو دردیر.

کؤورلمه سارسیلما تابلاش آی قاغا،
بیزلر دوغولموشوق درد اوخوماغا،
بیزیم آلنیمیزدا باشدان_آیاغا،
فلگین چکدیگی ناخیشی دردیر.

بلی فیکیرداشیم آییق اول آییق،
یاتان فیکیرلری آییتمالییق،
چایلاری ترسینه قاییتمالییق،
بیزلره سولاریـن آخیشی دردیر.

QƏZƏL

Mehran ƏBBASIYAN

Əgər əsirgəməsə yeddi qələm mürəkkəbini ,
Yazardım onda elin kəlmə-kəlmə mətləbini.

Hava soyuqdu, şəhər get bə get mərizləyəcək,
Əlimlə hiss edirəm təbrizin soyuq təbini.

Saram bu zülmə dözənmir, büyün- sabah özünü,
Atıb çaya puzacaq qaydasız elin dəbini.

Zaman məni ələdi, kimligim ələndı bütün,
Günə çıxartdı mənim tupraqımla, əcnəbını.

Özüm gərək qayıdam, qaytaram nağıllardan,
Koroğlu'nu, dəli sov eyuaz'ı, qaçaq nəb'ni.

İsalətin itirən bir adam, min ıl də qala,
Gəlib dulandıra bilməz nəsimi məktəbini.

Sara'm adaqlım olan gün, dilimlə söz verdim
Araz'lı gözlərim olsun adaqlımın kəbini...

غزل

مهران عباسیان

اگر اسیرگمَسه یدی قلم مورككبینی،
یازاردیم اوندا ائلین كلمه-كلمه مطلبینی.

هاوا سویوقدو، شهر گئت به گئت مریضله یه جك،
الیمله حیس ائدیرم تبریزین سویوق تَبی نی.

سارام بو ظولمه دؤزنمیر، بویون-صاباح اؤزونو،
آتیب چایا پوزاجاق قایداسیز ائلین دَبینی.

زامان منی اَله دی، كیملیگیم الندی بوتون،
گونه چیخارتدی منیم توپراقیملا، اجنبی نی.

اؤزوم گرك قاییدام، قایتارام ناغیللاردان،
«كور اوغلو»نو، دلی سوو «ائیواز»ی، «قاچاق نبی» نی.

ایصالتین ایتیرن بیر آدام، مین ایل ده قالا،
گلیب دولاندیرا بیلمز «نسیمی» مكتبینی.

«سارا»م آداقلیم اولان گون، دیلیمله سؤز وئردیم
«آراز»لی گؤزلریم اولسون آداقلیمین كبینی...

ADA SALIM MI?

Elvin NURİ

Bəlkə xatirəmdə qalıbdır adın,
İndi xatirəmi yada salımmı ?
Sevginə vəfasız olmusan deyə,
Sənli günlərimi oda salımmı ?

Düşsə nalə səsim yerlərə, göyə,
Dönük, çıxammaram, gülüm, sevgiyə,
Sən mənim ömrümü yandırdın deyə
Ömrünə min bəla, qada salımmı ?

Niyə bu yollarda yorursan məni ?
Hər dəfə verdiyin əzabın yeni,
Məndən uzaqdasan, tapmaqçün səni
Bağırıb dünyaya səda salımmı ?

Görünmür uzaqlar, hava çiskli, çən,
Dəniz mərkəzində dayanmısan sən.
Sənə, söylə görüm, çatmaq üçün mən
Dənizdə sevgimdən ada salımmı ?..

آداسالیممی؟

ائلوین نوری

بلکه خاطیرمده قالیبدیر آدین،
ایندی خاطیره‌می یادا سالیممی؟
سئوگینه وفاسیز اولموسان دئیه
سنلی گونلریمی اودا سالیممی؟

دوشسه ناله سسیم یئرلره، گؤیه،
دؤنوک، چیخاممارام، گولوم، سئوگییه،
سن منیم عؤمرومو یاندیردین دئیه
عؤمرونه مین بلا، قادا سالیممی؟

نییه بو یوللاردا یورورسان منی؟
هر دفعه وئردیگین عذابین یئنی،
مندن اوزاقداسان، تاپماقچون سنی
باغیریب دونیایا صدا سالیممی؟

گؤرونمور اوزاقلار، هاوا چیسکی، چن،
دنیز مرکزینده دایانمیسان سن.
سنه، سؤیله گؤروم، چاتماق اوچون من
دنیزده سئوگیمدن آدا سالیممی؟ ..

TƏBRIZ

Vida HEŞMƏTI

Günəşin qüzey pəncərəsi dir tabriz
Orda hər laladan bir iz
Baxma dəsmalçılar bazarında əmir yandı
Ondada hər tut ağacı
Bir şəhid sazın anasıydı

Hələ də qulağı səsdədi təbrizlərin
Çınqıllı daşlı bulaqdan süzülən
Köpük qızlar
Çiyinlərində tabaq-tabaq nərgiz
Həlmə sazandan mahnı daşıyacaqlar ,
Hörüklü-hörüklü...
Oxuyacaqlar kölgəsiz günəş havası:
..... Bala zəri xanım
..... Bala-bala zəri xanım...

Daşından yanan ocaq sönməz ki
Urmular qonaq gələcək
Təbrizin pıyan yaddaşına
Varıq deyəcəklər biz
Ahaaaaaaaay
Çaxır xuylym!
Kömür genətikli bal təbrizim .

تبریز

ویدا حشمتی

گونشین قوزئی پنجره سی دیر تبریز
اوردا هر لالادان بیر ایز
باخما دستمالچیلار بازاریندا امیر یاندی
اوندادا هر توت آغاجی
بیر شهید سازین آناسیدی

هله ده قولاغی سسده دی تبریزلرین
چینقیللی داشلی بولاقدان سوزولن
کؤپوک قیزلار
چیینلرینده تاباق تاباق نرگیز
حلمه سازاندان ماهنی داشییاجاقلار
هؤروکلو ،هؤروکلو...
اوخویاجاقلار کؤلگه سیز گونش هاواسی:
.....بالا زری خانیم
.....بالا بالا زری خانیم...

داشیندان یانان اوجاق سؤنمز کی
اورمولار قوناق گله جک
تبریزین پییان یادداشینا
واریق دئیه جکلر بیز
آهاااااااای
چاخیر خویلوم!
کؤمور گئنه تیکلی* بال تبریز.

*ژننتیک لی

QISQANAM SƏNI

Lalə İSMAYIL

Göy dənizin bəzəyi, şirin, şıltaq ləpələr,
Dalğalar göy suları qayalara səpələr,
Əsən səhər küləyi tellərini öpələr,
Gizlincə əsib keçən yeldən qısqanam səni.

Günəş vura dağların başında qar çözülə,
Sular cığır yarada, cərgə-cərgə düzülə,
Qayalardan qaynayan buz bulaqlar süzülə,
Dərələrdə çağlayan seldən qısqanam səni.

Qızılgüllər oyanıb, qönçə düymələnəndə,
Arı əlvan güllərin şirəsini əməndə,
Səhər-axşam gəzdiyin, yaşıl şehli çəməndə,
Ətəyinə toxunan güldən qısqanam səni.

Qar altdan baş qaldırıb, qonaq gəlmiş bahara,
Gülün sevdası ilə bülbül fəqan qopara,
Alıb özümdən yenə, məni xəyal apara,
Sənə nəğmə oxuyan dildən qısqanam səni.

Köç eyləyə durnalar qürbət ölkədən bizə,
Lalələr əlvan geyib, çıxalar yaşıl düzə,
Salxım söyüdlər teli tökələr üzə, gözə,
Sonalar rəqs eyləyən göldən qısqanam səni.

Yazın nəfəsi ilə gizlin qəlbinə dolam,
Sən şamın pərvanə tək hey, başına dolanam,
Yola çıxan karvanın sarvanı özüm olam,
Dağlara köç eyləyən eldən qısqanam səni.

Divanəyə çevirib salma yarı peşinə,
Yoxdur imkanı səndən özgə bir kəs düşünə,
Rəbbimin göndərdiyi ilham pərisin yenə,
Sənə tərəf tuşlayın məndən qısqanam seni.

قیسقانام سنی

لاله ایسماعیل

گؤی دنیزین بزگی، شیرین، شیلتاق لپه لر،
دالغالار گؤی سولاری قایالارا سپه‌لر،
اسن سحر کولگی تئللرینی اؤپه‌لر،
گیزلینجه اسیب کئچن یئلدن قیسقانام سنی.

گونش وورا داغلارین باشیندا قار چؤزوله،
سولار جیغیر یارادا، جرگه-جرگه دوزوله،
قایالاردان قاینایان بوز بولاقلار سوزوله،
دره‌لرده چاغلایان سئلدن قیسقانام سنی.

قیزیل گوللر اوبانیب، قؤنچه دویم لننده،
آری الوان گوللرین شیره‌سینی امنده،
سحر-آخشام گزدیگین، یاشیل شئهلی چمنده،
اتگینه توخونان گولدن قیسقانام سنی.

قار آلتدان باش قالدیریب، قوناق گلمیش باهارا،
گولون سئوداسی ایله بولبول فغان قوپارا،
آلیب اؤزومدن یئنه، منی خیال آپارا،
سنه نغمه اوخویان دیلدن قیسقانام سنی.

کؤچ ائیله‌یه دورنالار قوربت اؤلکه‌دن ییزه،
لاله‌لر الوان گئییب، چیخالار یاشیل دوزه،
سالخیم سؤیودلر تئلی تؤکه‌لر اوزه، گؤزه،
سونالار رقص ائیله‌ین گؤلدن قیسقانام سنی.

یازین نفسی ایله گیزلین قلبینه دولام،
سن شامین پروانه تک هئی، باشینا دولانام،
یولا چیخان کاروانین ساروانی اؤزوم اولام،
داغلارا کؤچ ائیله‌ین ائلدن قیسقانام سنی.

دیوانه‌یه چئویریب سالما یاری پئشینه،
یوخدور ایمکانی سندن اؤزگه بیر کس دوشونه،
ربیمین گؤندردیگی ایلهام پریسین یئنه،
سنه طرف توشلایین مندن قیسقانام سئنی.

NƏ GƏLDI BU ELIN ARZILARINA?

Duman BƏXTIYARI

Kaş bu yuxuları sel aparaydı
Durnalar qayıdıb gələydi ... amma.
Yağışın səsi lə bir çılğın kişi
Təbrizin göz yaşın siləydi ...amma.

Bizim yuxuların cırttanı yox kı!!
Günəşin qalası söküldü yatdıq.
Duzlu yaramızın dərinligində
Urmu gözümüzdən töküldü yatdıq.

Nə gəldi bu elin arzılarına?
Yandı baxa baxa budaqlarımız.
Körpüsü dağılan fasilələrdə
Sevişə bilmədi dodaqlarımız.

Getdi yaramızı göynəyən kişi
Yolların ağrısın daşıyanmadı.
O qatar səsində uçan dağ kimi
Uçub veran oldu yaşayanmadı.

نه گلدی بو ائلین آرزی لارینا

دومان بختیاری

کاش بو یوخولاری سئل آپارایدی
دورنالار قاییدیب گله یدی ...آمما.
یاغیشین سسی‌ایله بیر چیلغین کیشی
تبریزین گؤزیاشین سیله یدی ...آمما.

بیزیم یوخولارین جیرتدانی یوخ کی!!
گونشین قالاسی سؤکولدو... یاتدیق.
دوزلو یارامیزین دریلیگینده
اورمو گؤزوموزدن تؤکولدو... یاتدیق.

نه گلدی بو ائلین آرزی‌لارینا؟!!
یاندی باخا -باخا بوداق‌لاریمیز.
کؤرپوسو داغیلان فاصیله لرده
سئویشه بیلمه دی دوداق‌لاریمیز.

گئتدی یارامیزی گؤینه ین کیشی
یوللارین آغریسین داشییا نمادی.
او قاطار سسینده اوچان داغ کیمی
اوچوب وئران اولدو، یاشییا نمادی.

SƏNƏ DEYİLƏSİ ÜRƏK ...

Vasif Süleyman

Ağlımmı çoxuydu onda, sən Allah,
Onda xoşa gələn boyummu vardı...
Boyum gödək oldu, indi ağlım az…
Dünya dəyişmədi məni sevəndə,
Məni sevməsən də dünya dağılmaz.

Nə yazım indi mən, aramız sərin,
Gözlərim yollardan yığışmaz daha.
Sənə deyiləsi ürək sözlərim,
Əl boyda kağıza sığışmaz daha.

Daha qənşərinə bağlanır yolum,
Qırılır, sökülür adam içindən.
Demişəm sevirəm, deməmiş olum,
Minnətə əl atma adam içində.

Guya ulduz olub çəkildik göyə,
Bacarsan indi tap, orda hansıyıq...
Təsəlli axtarma yaşayaq deyə,
Dünyada o qədər ölüm-itim var -
Hərəmiz birinə qoşulasıyıq.

Vədəli qismətə sığınammadıq,
Qoşa gəlməyin də bəlası varmış.
Ürəyə axmağın, qəlbə yatmağın,
Xoşa gəlməyin də bəlası varmış.

Nə yazım indi mən, aramız sərin,
Gözlərim yollardan yığışmaz daha.
Sənə deyiləsi ürək sözlərim,
Əl boyda kağıza sığışmaz daha.

سنه دئییله‌سی اورک سؤزلریم

واصیف سلیمان

عاغلیممی چوخویدو اوندا، سن آللە؟
اوندا خوشا گلن بویوممو واردی...
بویوم گؤدک اولدو، ایندی عاغلیم آز ...
دونیا دییشمه‌دی منی سئونده،
منی سئومه‌سنده دونیا داغیلماز.

نه یازیم ایندی من، آرامیز سرین،
گؤزلریم یوللاردان یئغیشماز داها.
سنه دئییله‌سی اورک سؤزلریم،
ال بویدا کاغیذا سیغیشماز داها.

داها قنشرینه باغلانیر یولوم،
قیریلیر، سؤکولور آدام ایچیندن.
دئمیشم سئویرم، دئمه‌میش اولوم،
مینتله ال آتما آدام ایچینده.

گویا اولدوز اولوب چکیلدیک گؤیه،
باجارسان ایندی تاپ، اوردا هانسییییق...
تسللی آختارما یاشایاق دئیه،
دونیادا او قدر اؤلوم-ایتیم وار -
هره میز بیرینه قوشولاسییییق.

وعده‌لی قیسمته سیغیناممادیق،
قوشا گلمگینده بلاسی وارمیش.
اوره‌یه آخماغین، قلبه یاتماغین،
خوشا گلمگینده بلاسی وارمیش.

نه یازیم ایندی من، آرامیز سرین،
گؤزلریم یوللاردان یئغیشماز داها.
سنه دئییله‌سی اورک سؤزلریم،
ال بویدا کاغیذا سیغیشماز داها.